

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 101 (23.263)

*31 may 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiymətı 20 qəpik

## *Rəsmi xronika*

Mayın 29-da Bakı Olimpiya Stadionunda keçirilən UEFA Avropa Liqasının final qarşılaşmasının qalibi "Çelsi" komandası olub.

Londonun "Arsenal" və "Çelsi" komandaları arasında baş tutan maraqlı final oyununa Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də baxıblar.

Azərbaycanın paytaxtında çoxdandır maraqla gözlənilən futbol yarışı uğurla baş tutub.

Avropa Liqası tarixində ilk dəfə bu oyunda videonəzarət (VAR) sistemindən istifadə olunub. Bundan başqa, bu turnirdə ilk dəfə olaraq komandalar əlavə vaxt təyin olunacağı təqdirdə dördüncü əvəzetmədən istifadə etmək hüququ qazanıblar.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 30-da ATƏT-in Minsk qrupunun Fransadan olan həmsədri Stefan Viskontini, Rusiyadan olan həmsədri İqor Popovu, ABŞ-dan olan həmsədri Endrü Şoferi və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anji Kaspşiki qəbul edib.

Görüşdə Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 30-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna ilə görüşüb.

Ali Məclisin Sədri qonağı salamlamış, ölkəmizdəki diplomatik fəaliyyətində səfirə uğurlar arzulamışdır. Ölkələrimiz arasındakı münasibətlərin inkişaf etdiyini bildirən Ali Məclisin Sədri bunun tərkib hissəsi kimi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Hindistan arasında tütünçülük, əczaçılıq və iqtisadi-ticarət sahəsində əlaqələrin olduğunu diqqətə çatdırmışdır.

Ali Məclisin Sədri təhsil sahəsində, xüsusilə ali təhsil müəssisələri arasında əlaqələrin inkişafı üçün imkanların olduğunu bildirmiş, səfirin uğurlu keçəcəyinə əminliyini ifadə etmişdir.

Bavitlunq Vanlalvavna Naxçıvan Muxtar Respublikasına səfərə mühüm əhəmiyyət verdiklərini bildirmiş, göstərilən qonaqpərvərliyə və səmimi münasibətə görə minnətdarlıq etmişdir. Əlaqələrin inkişafından danışan səfir Naxçıvan Muxtar Respublikası ilə təhsil sahəsində əməkdaşlıq üçün hazır olduqlarını qeyd etmiş və bu istiqamətdə səylərini əsirgəməyəcəyini vurğulamışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



## Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Naxçıvan Dövlət Universitetində olub

*Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində Naxçıvan Dövlət Universitetində olub.*

Universitetlə tanışlıq zamanı rektor, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov rəhbərlik etdiyi ali təhsil ocağının strukturu, fakültələri, tədris olunan ixtisaslar və beynəlxalq əlaqələri haqqında geniş məlumat verib.

Beynəlxalq münasibətlər və xarici dillər fakültəsində keçirilən görüşdə rektor ali təhsil ocağının beynəlxalq əlaqələrinin sürətlə genişləndiyini bildirib. Universitetdə hazırda 500-ə yaxın xarici tələbənin təhsil aldığı vurğulanıb. Qeyd edilib ki, universitet müxtəlif ölkələrin ali təhsil ocaqları ilə tələbə və müəllim mübadiləsini həyata keçirir.

Səfir Azərbaycan və Hindistan arasında rəsmi əlaqələrin yüksək səviyyədə olduğunu və münasibətlərin təhsil sahəsində də gücləndirilməsinin vacibliyini qeyd edib. Diplomat universitetdə hər bir fakültə üçün ayrıca tədris korpusunun olmasını heyranlıqla qarşılayıb.

Görüşdə təhsil sahəsində ölkələrarası əlaqələrin inkişafı üçün gələcək perspektivlər müzakirə olunub. Sonda tələbələrin sualları cavablandırılıb.

**Səadət ƏLİYEVA**

## Bavitlunq Vanlalvavna: Naxçıvana səfər məndə böyük təəssürat yaratdı





Hindistan Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna Naxçıvan Muxtar Respublikasına səfəri çərçivəsində əvvəlcə müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub, ulu öndərin xatirəsini dərin ehtiramla yad edib. Sonra Heydər Əliyev Muzeyində ümummilli liderin həyatını və çoxşaxəli dövlətçilik fəaliyyətini əks etdirən eksponatlara baxıb.

Səfir Naxçıvan Dövlət Xalça Muzeyi, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi və "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də olub.

Diplomat Naxçıvan Avtomobil Zavodunun, "Gəmiqaya Mebel Fabriki", "Gəmiqaya Mineral Sular" və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi" Məhdud Məsuliyyətli cəmiyyətlərinin istehsal potensialı ilə maraqlanıb.

Naxçıvan Biznes Mərkəzində olan qonaq mərkəzin sərgi salonunda muxtar respublikada istehsal olunan məhsullardan ibarət sərgiyə baxıb. Məlumat verilib ki, hazırda muxtar respublikada 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir.

* * *

Hindistan Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Bavitlunq Vanlalvavna "Şərq qapısı" qəzetinə müsahibəsində səfərinin məqsədi və Naxçıvanla tanışlığının onda yaratdığı təəssüratlar barədə danışıb:

– Öncə onu deyim ki, Naxçıvan Muxtar Respublikasına səfər etməkdən, bura ilə tanışlıqdan çox məmnunam. Üç aydır, Azərbaycandayam və sevinirəm ki, bu qüdrətli ölkənin qədim diyarına da gələ bildim. Səfər çərçivəsində mən Naxçıvanın mədəni-tarixi abidələri ilə tanış oldum. Bir diyarın müasirləşməsi ilə paralel qədimliyini də qoruyub saxlaması, həqiqətən, təqdirəlayiq haldır. Səfər müddətində mən bir sıra rəsmi görüşlər də keçirdim, qarşılıqlı fikir mübadiləsi apardıq. Gələcəkdə bir sıra sahələrdə əməkdaşlığımızı daha da artırmağı planlaşdırdıq. Xüsusilə mədəniyyət kollektivlərinin qarşılıqlı şəkildə gediş-gəlişini təmin etmək, bir sözlə, mədəni əlaqələrimizi gücləndirmək niyyətindəyik.

Səfər müddətində Naxçıvanın bir sıra istehsal və sənaye müəssisələrində də oldum, quraşdırılan avadanlıqların müasir tələblərə cavab verməsi, istehsal edilən materialların yüksək keyfiyyətə malik olması xüsusilə diqqətimi çəkdi. Fikrimcə, iqtisadiyyat sahəsində də əməkdaşlığımızı gücləndirməliyik və bu həm Hindistan, həm də Azərbaycanın bu qədim diyarı üçün olduqca uğurlu nəticələr verə bilər.

Onu da qeyd edim ki, Naxçıvana gəldiyim gündən buradakı səmimi atmosfer, sakitlik, təmizlik gözümü, könlümü oxşadı. İnsanlar çox mehriban və qonaqpərvərdirlər. Şəhərin estetik görünüşü olduqca valehedici təsirə malikdir. Qədim abidələr, yaşıllıq ərazilər insana xoş duyğular bəxş edir. Gəzdikcə, ətrafı seyr etdikcə insana sanki mənəvi rahatlıq gəlir, əhval-ruhiyyən daha da artır. Bir sözlə, Naxçıvan məndə böyük təəssürat yaratdı və bu diyara gələcəkdə də səfər etmək niyyətim vardır.

**Xəbərlər şöbəsi**

# "Naxçıvan qadınlarının sahibkarlıq fəaliyyəti: əzmkarlıqdan nailiyyətə" mövzusunda tədbir

*Mayın 30-da Naxçıvan Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasında 2019-cu ilin "Ailə təsərrüfatları ili" elan olunması ilə əlaqədar "Naxçıvan qadınlarının sahibkarlıq fəaliyyəti: əzmkarlıqdan nailiyyətə" mövzusunda tədbir keçirilib. Əvvəlcə tədbir iştirakçıları ümummilli liderimiz Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstələri qoyub, Heydər Əliyev Muzeyini ziyarət ediblər.*



Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxışında vurğulayıb ki, yaradılan şərait nəticəsində bu gün muxtar respublikada fəal əməklə məşğul olan və iqtisadiyyatın müxtəlif sahələrində işləyən əhalinin 33 faizini qadınlar təşkil edir.

Qeyd olunub ki, muxtar respublikada qadınların ilkin sahibkarlıq fəaliyyətinə cəlb edilməsi, yeni iş yerlərinin yaradılması istiqamətində keçirilən çoxsaylı tədbirlərin nəticəsində hazırda muxtar respublikada, ümumilikdə, 5527 qadın sahibkarlıq fəaliyyəti ilə məşğuldur. Bu gün qadınların, xüsusən aztəminatlı, sağlamlıq imkanları məhdud qadınların da sahibkarlıq fəaliyyətinə təşviq edilməsi üçün muxtar respublikada müxtəlif beynəlxalq layihələr həyata keçirilir. Növbəti layihə çərçivəsində yaradıcılığa və ya istehsala meyilli 250-dən çox sahibkar qadın keçirilən təlimlərə cəlb olunub.

Komitə sədri bildirib ki, ailə təsərrüfatlarının inkişaf etdirilməsi ilə bağlı həyata keçirilən tədbirlər nəticəsində hazırda 1022 ailə təsərrüfatı başçısından 177-si qadındır.

Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova çıxışında qadınlarımızın iqtisadi hüquqlarının daha da güclənməsinə mühüm töhfə olan bugünkü konfransın keçirilməsinə yaratdığı şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova minnətdarlığını bildirib. O vurğulayıb ki, Azərbaycanda siyasi, iqtisadi, sosial-mədəni və humanitar sahələrdə görülən işlər Naxçıvan Muxtar Respublikasında da öz əksini tapmaqdadır. Əldə edilən nailiyyətlər isə, hər şeydən əvvəl, sakinlərin rifahının yaxşılaşdırılmasına xidmət edir.

Hicran Hüseynova deyib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun qayğısı nəticəsində muxtar respublikada hər bir vətəndaşın sosial müdafiəsi güclənib və onlar üçün bərabər şərait yaradılıb.

Vurğulanıb ki, bu gün Naxçıvan qadınlarının sosial və iqtisadi həyatda çox aktiv iştirak etməsi bizi sevindirir. Xüsusilə də aztəminatlı və sağlamlıq imkanları məhdud ailələrin üzvü olan qadınlar arasında özünüməşğulluğun təmin edilməsi sahəsində görülən işlər təqdirəlayiqdir.

Komitə sədri qeyd edib ki, ölkə üzrə fərdi sahibkarlığın artan dinamikasını muxtar respublikada da görürük. Naxçıvanda işgüzar, aktiv qadınların sayı ildən-ilə artır. Onlar gələcəkdə daha böyük uğurlara nail olacaqlar.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid çıxış edərək bildirib ki, Azərbaycanda əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan dövlət qadın siyasəti qadınların cəmiyyətdəki statusunun və rolunun yüksəldilməsi ilə nəticələnib. Bu siyasət muxtar respublikada da uğurla davam etdirilir. Ali Məclis Sədrinin diqqət və qayğısı nəticəsində muxtar respublikada qadınların fəaliyyəti üçün hər cür şərait yaradılıb.

Diqqətə çatdırılıb ki, müasirləşən və inkişaf edən muxtar respublikamızda qadınların ictimai-siyasi və sosial-mədəni həyata daha fəal cəlb olunması iqtisadiyyatın və sahibkarlığın da inkişafına təkan verir. Qadınlara hüquqi, texniki və maliyyə yardımlarının göstərilməsi, güzəştli kreditlərin verilməsi istiqamətində mühüm addımlar atılır, əlverişli hüquqi baza qurulur. Nəticə etibarilə, qadınların iqtisadi təşəbbüskarlığının artması, mikro, kiçik və orta biznesdə geniş təmsil olunması məşğulluğun təmin edilməsi baxımından böyük əhəmiyyət kəsb edir. Qadın sahibkarlığın inkişafı, bunun üçün stimullaşdırıcı mexanizmlərin işlənib hazırlanması Naxçıvanda qadınların öz potensiallarının reallaşdırılması imkanlarını əhəmiyyətli dərəcədə artırıb.

Bildirilib ki, bu gün ölkəmizdə formalaşan müasir ailə institutu milli dəyərlər sisteminin daşıyıcısı kimi cəmiyyətin inkişafında da əvəzsiz rol oynayır. Ailə biznesinin bir forması olan ailə təsərrüfatlarının yaradılması yeni dövrün iqtisadi mexanizmi kimi xüsusi əhəmiyyət kəsb edir. Bu baxımdan Naxçıvanda hər il ənənə halını almış "Ailə təsərrüfatı məhsulları" festivalının keçirilməsi, 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan edilməsi ailələrin iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına xidmət edən, özünüməşğulluğun və sahibkarlığın inkişafına yönəlmiş mühüm addımlardan biridir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının Humanitar siyasət məsələləri və ictimai təşkilatlarla iş şöbəsinin müdiri Surə Seyid bildirib ki, "Ailə təsərrüfatları ili"ndə həyata keçirilən tədbirlər muxtar respublikamızda ailə biznesinin inkişafına, qadınların iqtisadi potensialının artmasına, diyarımızın gələcək iqtisadi tərəqqisinə öz töhfəsini verəcəkdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyi yanında Maliyyə Tədris Mərkəzinin direktoru, iqtisad üzrə fəlsəfə doktoru Sevinc Cabbarova, "Zümrüd Geyim" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Mehrəngiz Əkbərova, ailə təsərrüfatçısı Süreyya Quliyeva çıxış ediblər.

Sonra Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidovaya ailə, qadın və uşaq siyasətinin həyata keçirilməsi sahəsindəki fəaliyyətinə görə Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin xatirə medalı təqdim olunub. Muxtar respublikanın bir qrup fəal qadın sahibkarına isə komitənin diplomları təqdim edilib.

Naxçıvan televiziyasının hazırladığı "Dünənimizdən bu günə: iqtisadiyyatımız və qadınlar" mövzusunda filmin nümayişindən sonra tədbir iştirakçıları Naxçıvan Biznes Mərkəzində yerli istehsal məhsullarının sərgisi ilə tanış olublar.

**Rauf KƏNGƏRLİ**

# Malayziya mətbuatı Duzdağ Fizioterapiya Mərkəzindən yazdı




Mayın 24-də Azərbaycan Tibb Universitetinin Klinik allerqologiya və immunologiya kafedrasının müdiri, tibb elmləri doktoru, professor Lalə Allahverdiyevanın Malayziyanın Milli Xəbər Agentliyi "BERNAMA"da "Azərbaycan Tibb Universiteti speleoterapiya sahəsində Malayziya universitetləri ilə əməkdaşlıqda maraqlıdır" sərlövhəli məqaləsi dərc olunub.

Məqalədə müəllif speleoterapiya ilə müalicədə Duzdağ Fizioterapiya Mərkəzinin imkanlarından faydalanmağı məsləhət görmüş və Malayziya universitetləri ilə əməkdaşlıq imkanlarını diqqətə çatdırmışdır. Azərbaycanın bu sahədə qabaqcıl təcrübəyə malik olduğunu qeyd edən Lalə Allahverdiyeva Naxçıvan Muxtar Respublikasında yerləşən Duzdağ Fizioterapiya Mərkəzinin unikal tibbi-müalicə və reabilitasiya müəssisəsi kimi əhəmiyyətinə toxunmuşdur. Qeyd olunmuşdur ki, 1979-cu ildən fəaliyyət göstərən sözügedən tibb müəssisəsi hazırda ən müasir tələblərə cavab verən sağlamlıq mərkəzinə çevrilib və buraya gələn xəstələr, təqribən, 2-3 həftə müddətində duz mağarasında qaldıqdan sonra yenidən sağlamlıqlarına qovuşurlar. Məqalədə Duzdağ mağarasının Azərbaycanın Naxçıvan Muxtar Respublikasının rəmzlərindən biri olduğu, müalicəvi xüsusiyyətlərinə görə bənzərsiz təbii şəfa mənbəyinə çevrildiyi öz əksini tapmışdır.

Diqqətə çatdırılmışdır ki, 2015-ci ildə Sinqapurda keçirilən XXI Ümumdünya Tibdə Reabilitasiya və İmmunoreabilitasiya Konqresində, eləcə də VIII Ümumdünya Astma, Allergiya və XOAX üzrə Forumda Lalə Allahverdiyevanın "Naxçıvanın Duzdağ mağarasında bronxial-astmanın qeyri-medikamentoz müalicəsi" adlı məruzəsi birinci yerə layiq görülmüşdür.

Məqalənin sonunda müəllif bu unikal müalicə mərkəzinə gəlmək istəyən malayziyalılar üçün lazımi köməklik göstəriləcəyini bildirmişdir.

**"Şərq qapısı"**

# Sığorta işinin vəziyyəti müzakirə olunub

*Dünən Sədərək Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin mövcud vəziyyəti və qarşıda duran vəzifələr müzakirə edilib.*

Tədbirdə giriş sözü ilə çıxış edən Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Həbib İbrahimov son illərdə rayonda sığorta sahəsində görülmüş işlərdən danışıb.

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək müasir cəmiyyətdə sığortanın əhəmiyyətindən və onun gələcək inkişaf perspektivlərindən danışıb. Bildirilib ki, muxtar respublikada da sığorta işinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi daim dövlətin diqqət mərkəzində saxlanılır.

Sığorta ödənişlərinin əhəmiyyətindən bəhs edən baş direktor vaxtında sığorta müqaviləsi bağlamağın faydalı cəhətlərini tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirilib ki, ötən müddət ərzində Sədərək rayonunda hüquqi və fiziki şəxslərin sığortaya cəlb olunması istiqamətində bir sıra işlər görülüb. Nəticədə, rayonda cari ilin ötən dövründə sığorta haqlarının toplanması ötən ilin müvafiq dövrü ilə müqayisədə 4,1 faiz, sığorta müqavilələrinin sayı isə 61 ədəd artıb. Rayonda müxtəlif sığorta növləri üzrə mövcud vəziyyət təhlil edilərək qeyd olunub ki, görülmüş işlərlə bərabər, bəzi icbari sığorta növləri üzrə müqavilələrin bağlanılmasında da çatışmazlıqlar da vardır.



Vurğulanıb ki, ölkəmizdə qüvvədə olan qanuna əsasən icbari qaydada sığorta olunmalı olan hər bir obyektin sığortası təmin edilməlidir. Qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi üçün Sədərək rayonunda sığorta işinin daha da inkişafı, əhali arasında maarifləndirmə işinin, sığortanın kütləviliyinin təmin olunması və sığorta mədəniyyətinin artırılması üçün tədbirlər görülməlidir. Baş direktor könüllü sığortaların, o cümlədən kənd təsərrüfatı sığortasının da əhəmiyyətinə toxunaraq vurğulayıb ki, Sədərək rayonunda bu sahədə aparılan maarifləndirmə işləri genişləndirilməlidir.

Qeyd olunub ki, kənd təsərrüfatı sığortası ilə yanaşı, ev əmlakının sığortası, fərdi qəza sığortası və digər könüllü sığortaların inkişafı, son nəticədə, insanların rifahının yüksəldilməsinə xidmət edir.

Tədbirdə Sədərək Rayon Dövlət Yanğın Təhlükəsizliyi Şöbəsinin rəisi, daxili xidmət mayoru Müşfiq Mustafayev, Sədərək Rayon Polis Şöbəsinin əməkdaşı Nail Piriyev, Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin əməkdaşı İsfəndiyar Kərimov icbari sığortalar sahəsində görülmüş işlərin vəziyyəti barədə məlumat verib, tədbir iştirakçılarının sualları cavablandırılıb.

**Əli CABBAROV**

# Tələbələrlə görüşlər keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında" 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Dövlət Universitetində Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidməti ilə birgə tədbir keçirilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov sərəncamın əhəmiyyətindən ətraflı bəhs edərək bildirib ki, göstərilən dövlət qayğısının nəticəsində Baytarlıq təbabəti ixtisası tələbələri universitetdə dövlət sifarişi əsasında təhsil alırlar.

Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətinin rəisi Vəli Novruzov bildirib ki, müvafiq sərəncamın icrası istiqamətində muxtar respublikanın təhsil müəssisələrini bitirən 10 nəfər ixtisaslı baytar həkim xidməti üzrə işlərlə təmin olunub.

Diqqətə çatdırılıb ki, baytarlıq üzrə yeni layihələrin hazırlanmasına diqqəti artırmaq məqsədilə xidmətin mütəxəssislərindən ibarət ekspert qrupu yaradılıb.

Xidmətin Xüsusi təhlükəli xəstəliklərə nəzarət şöbəsinin müdiri Elnur Əliyev bildirib ki, innovativ ideyalar iqtisadiyyatın bütün sahələrinə, o cümlədən tibb, baytarlıq və kənd təsərrüfatı kimi mühüm əhəmiyyətli sahələrə də aid ola bilər.

Sonra müəllim və tələbələrin mövzu ilə əlaqədar təklifləri dinlənilib.

* * *

"Naxçıvan" Universitetində Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinə hamiliyə verilmiş İqtisadiyyat ixtisasının tələbələri ilə görüş keçirilib.

Tədbirdə universitetin tədris və tərbiyə işləri üzrə prorektoru, iqtisad üzrə fəlsəfə doktoru Hüseyn Bağırsoylu qeyd edib ki, gələcəkdə müxtəlif sahələrdə çalışacaq kadrların daha peşəkar yetişməsi, onların seçdikləri ixtisasların sirlərinə dərindən yiyələnmələri dayanıqlı inkişafın əsas amillərindən biridir.

Naxçıvan Muxtar Respublikası Vergilər nazirinin müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov bildirib ki, nazirlikdə "Naxçıvan" Universitetinin hamiliyə götürülən İqtisadiyyat ixtisasının tələbələri ilə mütəmadi görüşlər keçirilir və onlar istehsalat təcrübələrində yaxından iştirak edirlər. Belə görüşlərin keçirilməsi, aparılan istehsalat təcrübələri tələbələrin nəzəriyyədə qazandıqlarının praktika ilə zənginləşdirilməsinə şərait yaradır.

Nazirliyin əməkdaşı Elçin Babayev slaydlar vasitəsilə innovativ layihələrin işlənib hazırlanması, əsaslandırılması və təqdim olunması istiqamətində məlumat verib, həmin layihələrin təhlil edilməsi barədə fikirlərini çatdırıb. Qeyd edib ki, tələbələr *vergi.nakhchivan.az* rəsmi internet səhifəsinə daxil olmaqla startap layihələrini Vergilər Nazirliyinə onlayn olaraq göndərə bilərlər.

Nazirliyin əməkdaşı Nihad Möhbalıyev slaydlar vasitəsilə "Məhsul yaratma və məhsulun həyat dövrü" haqqında geniş məlumat verib.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

**Xəbərlər şöbəsi**

*Jurnalistin qeydləri*

# Müasir Naxçıvanın xoşbəxt uşaqları

*Hər səhər evdən işə gedərkən qarşılaşdığım, gözəl və səliqəli məktəbli formasında dərsə tələsən uşaqlar... Valideynlərinin əlindən tutub onları suallarla yoran balaca fidanlar... Onları gördükcə uşaqlığım gözlərimin önündə canlanır. Heç bir zaman geri qayıtmağını istəmədiyim uşaqlıq... Heç bir zaman unutmadığım, Naxçıvan şəhərindəki internat məktəbində oxuduğum o çətin illər. Qış günlərində neft sobaları ilə qızdırılan sinif otaqları. Neft iyi, qapqara olan paltarlarımız...*

Heç yadımdan çıxmaz, müəllimimiz bizə "Bizim şəhər" adlı inşa yazmağı tapşırdı. Həmin gün lampa işığında ağ vərəqə nə yazacağımı saatlarla düşündüm. Boynubükük şəhərimdən nə yazım? Toz-torpaq içində itib-batan şəhərimi necə təsvir edim? Parklardakı köhnədən qalmış uşaq əyləncə qurğularına həsrətlə baxdığımızı necə qələmə alım? Tozlu və kələ-kötür yollara tab gətirməyən ayaqqabılarımızı görəndə körpə ürəyimizin necə parçalandığını hansı sözlərlə ifadə edim? Bunları yaza bilmədim. Amma nə yaxşı ki o dövrdə uşaqlığımızın çətinliklərini qələmə alan cəsarətli naxçıvanlı jurnalistlər olub. "Şərq qapısı" qəzetinin 30 mart 1994-cü il tarixli nömrəsindəki cümlələri ürəkağrısı ilə oxuyuruq: "Ömrümüzün müharibəsiz çağlarında "Uşaqlar gələcəyimizdir" deyib uşaq ili elan edər, uşaq tərbiyə müəssisələrində, məktəb və məktəbdənkənar tərbiyə ocaqlarında sırf uşaqlar üçün nəzərdə tutulan tədbirlər keçirər, maraqlı müsabiqələr təşkil edərdilər. Hər il musiqi, rəssamlıq, bədii qiraət, şahmat, dama və sair üzrə neçə-neçə istedadlı yeniyetmə aşkar edilib üzə çıxarılardı. Bu da təbii haldır ki, müharibə gedən ölkədə dinc quruculuq illərinin ab-havası hökm sürə bilməz. Müharibənin öz qanunları var. Lakin acı və dəhşətli müharibə qanunlarından da irəli olan müqəddəs qanunlar var: gələcəyimiz olan uşaqların təlim-tərbiyəsi, sağlamlığı, istedad və bacarığının məhv olması qanunları! Təəssüf hissi ilə demək lazımdır ki, bu gün uşaqlara, yeniyetmə və gənclərə dövlət səviyyəsində qayğı və diqqət unudulub. Artıq 3-4 ildir ki, uşaq tərbiyə müəssisələrində balacaların istirahət və tərbiyəsi üçün lazımi şərait yoxdur. İstilik və işığın olmaması üzündən bağçalar tez-tez bağlanır. Valideynlər yüksəkkalorili ərzağın çatışmaması üzündən övladlarını bağçaya vermirlər".





25 il bundan əvvəl ürəkağrısı ilə qələmə alınan bu fikirləri oxuduqca düşünürsən ki, uşaqların belə bir vəziyyətdə yaşadığı məmləkətin gələcəyi ola bilərmi? Nə yaxşı ki o ağır illər çox uzun çəkmədi. XX əsrin sonları və XXI əsrin əvvəllərində Naxçıvanda uşaqlar üçün bütün imkanların yaradılmasına start verildi. Bu gün muxtar respublika əhalisinin 163 min 281 nəfəri uşaqdır. O uşaqlar ki həm dövlətimiz, həm də cəmiyyətimiz tərəfindən hərtərəfli qayğı ilə əhatə olunublar. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***"İnsan həyatında uşaqlıq, gənclik dövründən gözəl dövr yoxdur. Bu dövrdən maksimum səmərəli istifadə edilməlidir. Uşaqlıq və gənclik dövründə boş və mənasız keçirilən hər gün sonradan böyük itkilərə gətirib çıxara bilər. Bütün imkanlardan səmərəli istifadə olunmalıdır ki, gənc nəslimiz yaxşı bilik, təhsil alsın, elmin, həyatın bütün sahələrində olan təcrübəni mənimsəsin, həyatda, cəmiyyətdə həm özü, həm ölkə, həm də xalq üçün faydalı olsun".***

Gələcəyimiz olan uşaqlara böyük nikbinliklə baxan Ali Məclisin Sədri ***"Uşaqları qorumaq, onları müdafiə etmək hər bir dövlətin qarşısında duran əsas vəzifədir"*** ideyasını rəhbər tutaraq böyük bir xeyirxahlıq missiyasını həyata keçirir.

"Sağlam uşaq olmadan sağlam cəmiyyət ola bilməz" devizi ilə muxtar respublikada həyata keçirilən tədbirlərin miqyası genişdir. Bu gün uçqar dağ kəndlərimizdə belə, tibb ocaqları üçün yeni binaların tikilməsi və ya əsaslı təmir olunması, səhiyyə ocaqlarında uşaq şöbələrinin yaradılması, Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasının müasir tələblər səviyyəsində yenidən qurulması, Doğum Mərkəzi üçün yeni binanın inşası, Şərur Rayon Uşaq Xəstəxanasının yaradılması, bütün bu tibb müəssisələrinin müasir tibbi avadanlıqlarla təchiz edilməsi ülvi bir məqsədə xidmət edir: analarımızın və uşaqlarımızın sağlamlığını qorumaq. Nəticədə, son illərdə 1 yaşa qədər ölən uşaqların sayı üzrə göstəricini kəskin şəkildə aşağı salıb. Təkcə bir faktı qeyd edim ki, 2002-ci ildə 138 sağlamlıq imkanı məhdud uşaq dünyaya göz açmışdırsa, 2018-ci ildə bu rəqəm 1 olub.





1994-cü ildə "Şərq qapısı" qəzetində dərc olunan "Şagird dəftər istəyir" adlı məqalədə normal məktəb binasına, bir dəftərə, bir qələmə həsrət qalan uşaqların vəziyyəti ilə bağlı acı reallıqlar ürək ağrıdır. Bu gün həmin uşaqların övladları gözəl bağçalarda tərbiyə alır, müasir məktəblərdə oxuyurlar. Bu gün uşaqlar 25 il bundan öncə dərc olunan yazıda ürəkağrısı ilə qələmə alındığı kimi "küçələrdə alverçiliklə" məşğul deyil. İndi uşaqların yeri müasir məktəb binaları, uşaq bağçaları, şahmat mərkəzləri və digər məktəbdənkənar müəssisələr, idman kompleksləri, üzgüçülük mərkəzləridir. Bütün bunlara görədir ki, muxtar respublikada pis vərdişlərə meyilli, "ağ ölüm"ün qurbanı olan, dərsdən yayınan, hüquq pozan və 18 yaşına qədər cinayət hadisəsi törədən uşaq yoxdur. Bu gün Naxçıvanda 30 minə yaxın uşaq və gənc idmanla məşğul olur. Ötən illər ərzində qayğı və diqqətlə əhatə olunan o uşaqlar bugünkü 19-23 yaşlı gənclərdir. Onlar muxtar respublikamızı həm ölkəmizdə, həm də xarici dövlətlərdə layiqincə təmsil edirlər. Bir faktı qeyd edim: 2018-ci ildə keçirilən ali məktəblərə qəbul imtahanlarında 331 abituriyent 500-700 intervalında yüksək nəticə göstərib. Müqayisə üçün qeyd etmək olar ki, 1995-1996-cı tədris ilində bu göstəricini 5 nəfər əldə edib.

Xüsusi olaraq qeyd edilməlidir ki, uşaqlar dövlət uşaq müəssisələrinə 3 əsas səbəbdən düşürlər: yoxsulluq, ailənin dağılması və əlillik. Muxtar respublikada iqtisadiyyatın sürətli inkişafının, sosial sahələrə diqqətin artırılmasının, yeni iş yerlərinin açılmasının, o cümlədən hər bir ailənin sosial vəziyyətinin yaxşılaşmasının, aztəminatlı ailələrə göstərilən diqqət və qayğının yüksək səviyyədə olmasının nəticəsidir ki, dövlət uşaq müəssisələrində dövlət himayəsində təlim-tərbiyə alan uşaq yoxdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dediyi kimi: ***"İstedadlı nəsil – parlaq gələcək deməkdir"***. Muxtar respublikada fəaliyyət göstərən Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı, Naxçıvan Dövlət Uşaq Teatrı, Uşaq Filarmoniyası, Uşaq Kitabxanası kimi mədəniyyət ocaqları, Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzi, şahmat məktəbləri və onlarla digər məktəbdənkənar tərbiyə müəssisələri bu baxımdan mühüm əhəmiyyət daşıyır. İstedadlı uşaqların aşkara çıxarılması üçün müxtəlif tədbirlər, bilik və yaradıcılıq müsabiqələri, sərgilər, idman yarışları keçirilir. İstedadlı uşaqların adları Naxçıvan Muxtar Respublikası Gənc İstedadlarının "Qızıl kitabı"na yazılır, onlar Ali Məclis Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülürlər.

Muxtar respublikada sağlamlıq imkanları məhdud uşaqlar da hərtərəfli qayğı ilə əhatə olunublar. Bu kateqoriyadan olan uşaqların cəmiyyətə inteqrasiyası üçün lazımi şərait yaradılıb, Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində audio və elektron kitabxana istifadəyə verilib. Uşaq Bərpa Mərkəzinin də fəaliyyəti gücləndirilib. Demək olar ki, muxtar respublika uşaqların reabilitasiyası üçün hər cür imkanlara malikdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 11 yanvar tarixli Sərəncamı ilə təsdiq edilmiş "2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası istiqamətində həyata keçirilən tədbirlərə uyğun olaraq sağlamlıq imkanları məhdud uşaqlar distant təhsilə cəlb olunur. Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən mütəmadi olaraq muxtar respublikamızda qeydiyyatda olan sağlamlıq imkanları məhdud uşaqların xəstəliklərinin gələcəkdə aradan qaldırılması istiqamətində təhlillər aparılır, rayon və kənd mərkəzlərində belə xəstəliklərin qarşısının alınması ilə əlaqədar qadınlar arasında maarifləndirici tədbirlər həyata keçirilir.

***Deyirlər, uşaq gülürsə, demək, bəşəriyyət gülür. 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü ərəfəsində də dünyaya çatdırmaq istəyirik ki, müasir Naxçıvanın uşaqları xoşbəxtdir. Onların yaşadığı məmləkətdə sabitlik hökm sürür. Naxçıvanda uşaqlara ən qiymətli sərvət kimi dəyər verilir.***

**Sara ƏZİMOVA**
**jurnalist**

# Genetik xəstəlikləri göstərən proqramın istifadəsinə başlanılıb

*Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində ana və uşaqlara göstərilən tibbi xidmətin əhatə dairəsini genişləndirmək üçün mövcud tibbi avadanlıq, cihaz və aparatlardan istifadə metodları ilə müayinə və müalicələrin səmərəliliyi yüksəldilir. Həmin tədbirlərin davamı olaraq mərkəzin Histoloji laboratoriyasının kompüterinə hamilə qadınlarda gələcək övladının bəzi genetik xəstəliklərlə doğulma ehtimalını müəyyən etmək üçün ikili və üçlü araşdırma testləri yüklənib və onun tətbiqinə başlanılıb. Qeyd edək ki, əvvəllər Almaniyanın "Siemens" şirkətinə məxsus lisenziyalı "Prisca" proqramı ölkəmizdə yalnız bir səhiyyə müəssisəsində mövcud idi. Doğum Mərkəzinin də belə bir proqramla təmin olunması Naxçıvan səhiyyəsi üçün əlamətdar hadisədir.*



Mərkəzin həkim-laborantı Mirəstə Hüseynova bildirir ki, bu səhiyyə ocağında əvvəllər daun, trisomiya 18 və digər genetik xəstəliklər uşaq doğulandan sonra müəyyən edilirdi. Türkiyəli mütəxəssislər tərəfindən kompüterə yüklənmiş ikili və üçlü araşdırma testlərinin tətbiqi isə belə xəstəlikləri döldə müəyyən etməyə imkan verir.

Mütəxəssisin sözlərinə görə, ananın qida ilə yetərli qədər yod almaması doğulan uşaqda tiroid vəzinin hormon çatışmazlığına səbəb olur. Naxçıvan Muxtar Respublikası ərazisində yod elementi nisbətən az olduğuna görə hamilələrə profilaktik yod preparatlarının verilməsinə baxmayaraq, yenidoğulmuş uşaqlarda tiroid hormon çatışmazlığının yaranma riski daha da yüksəkdir. Belə halların aşkar edilməsi üçün mütləq yenidoğulmuş uşaqların qanında hormon səviyyəsini yoxlamaq lazımdır. Çünki bu hormonun azlığı uşaqların fiziki və zehni inkişafında çox ağır dəyişikliklər, o cümlədən ağıl zəifliyi, boy inkişafının ləngiməsi, karlıq, uzunmüddətli sarılıq, sinir sistemində geriyə dönməyən pozulmalarla müşahidə olunur. Ona görə də yeni doğulan uşaqlarda hormonun profilaktik yoxlanılması vacibdir. Bu hormonun dəyərlərində dəyişiklik müşahidə edilərsə, belə uşaqlar endokrinoloqun nəzarəti altında olmalıdırlar.

"Üçlü test nədir?" sualını cavablayan mütəxəssis bildirdi ki, ikili və ya üçlü araşdırma testi uşaqlarda müşahidə oluna biləcək bəzi xromosom anomaliyalarını 21-ci xromosomun trisomiyası (Daun sindromunu) və 18-ci xromosomun trisomiyasını (Edvard sindromunu) erkən aşkar etmək üçün hamilə qadınların 16 və 18-ci həftələri arasında tətbiq olunan bir laborator müayinə üsuludur. Hamiləlik müddətində ana və atanın ən çox nigaran qaldıqları məsələ uşaqlarının sağlam doğulub-doğulmayacağıdır. Hamiləliyin uyğun vaxtlarında edilən qan testləri və ultrasonoqrafik müayinələr risk qrupu təşkil edən döldə xromosom xəstəliklərinin 95-99 faiz ölçüdə diaqnozunun qoyulmasını təmin edir. Uşaqlarda rast gəlinən bu genetik xəstəliklər ağıl zəifliyinə və bəzi orqanların anomaliyalarına səbəb olur. Buna görə də üçlü testə bəzən zəka testi də deyilir. Öncə ikili test – yəni ananın qanında iki hormonun səviyyəsi yoxlanılır. Əgər bu analizlərdən şübhəli bir nəticə alınarsa, dölün 16-18 həftələri arasında əlavə daha bir hormon yoxlanılır. Üçlü testin aparılması bütün hamilələrə tövsiyə olunur. Lakin bəzi hallarda, o cümlədən hamiləliyin 11-12 həftəliyində dölün USM müayinəsində ənsə qalınlığı ölçüsü normadan artıqdırsa və digər bəlli əlamətlər mövcuddursa, araşdırma testlərinin aparılması zəruri hal alır və mütləq vacibdir.

Bu testlərin edilməsinin ana və ya körpə üçün hər hansı bir riski yoxdur. Ana bətnindəki körpənin qolundan alınan qanda edilən testlər kompüter proqramı ilə qiymətləndirilir və risk faktoru müəyyən edilir. Risk yüksək olduqda dərin müayinələrin vacibliyinə ehtiyac yaranır.

Bütövlükdə, test əsnasında körpəyə zərərverən şüalar və üsullardan istifadə edilmir.

**Hüseyn ƏSGƏROV**

## Ramazan "Qurani-Kərim"in baharıdır

***Deyirlər ki, minlərlə çiçək var, amma gül başqadır. Milyonlarla insan var, amma dost başqadır. Neçə-neçə aylar var, amma bu ay – Ramazan başqadır. Ulu Tanrı gəlişi ilə çölə-çəmənə yaşıl rəng səpələyən, min bir rəngli gül-çiçəyi ilə dünyamızı bəzəyən, dağların zirvəsindəki qarı əridib şaqqıltı ilə axan çaylara qovuşduran, büllur bulaqları qış yuxusundan oyadıb onlara həzin nəğmə oxutduran, ılıq nəfəsi ilə payızda soyuqdan özlərinə yer axtarıb isti ölkələrə üz tutan quşları geri çağıran baharı var etdiyi kimi, Ramazan ayını da "Qurani-Kərim"in baharı olması üçün var etdi. Onun başına "tac" qoyub on bir ayın sultanı elan etdi. Bu ayın qədərinə müqəddəs kitabımızın nazil olmasını nəsib etdi. Ramazanla müsəlman aləmi özünün yeni bir dövrünə – baharına, yazına qədəm qoydu. İslam dini bu baharla dinlərin ən ali mərtəbəsinə ucaldı. Allahın sonuncu elçisi Həzrəti Məhəmmədə (s.a.s) peyğəmbərliyin bu ayda verilməsi, müsəlmanların Məkkəni Ramazanda fəth etməsi, bir də oruc kimi möhtəşəm ibadətin bu aya layiq görülməsi, sanki Tanrının da həmin 30 günə sevdasındanmış…***



Məlumdur ki, oruc İslamla başlamamışdır, insanlar İslamdan əvvəl də oruc tutmuşlar. Bu, "Qurani-Kərim"də də açıq-aşkar ifadə edilmişdir: *"Ey iman gətirənlər! Oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi" (Bəqərə, 183).* Lakin yuxarıda sadalananların on bir aydan fərqli olaraq məhz bu aya sığdırılması Ramazanı zaman-zaman müqəddəsləşdirdi. Allah-Taala orucla bağlı buyurub: *"... Oruc mənim üçün edilən və riya qarışmayan ibadətdir. Onun mükafatını mən verəcəyəm. Çünki oruc tutan yeyib-içməyini və digər istəklərini mənim üçün tərk edib".*

Oruc tutmaqla Allahın əmrini sevərək yerinə yetirən möminlərin bağışlanacağını, günahlarının silinəcəyini müjdələyən Həzrəti Məhəmməd isə belə buyurub: *"Kim inanaraq, mükafatını Allahdan istəyərək Ramazan orucunu tutarsa, keçmiş günahları bağışlanar… İnsanın hər yaxşı əməlinin əvəzi qat-qat verilir. Bir yaxşılıq on qatdan 700 qata qədər mükafatlandırılır".* Bundan aydın olur ki, oruc Uca Yaradana böyük səbir və fədakarlıqla edilən ibadətdir. İldə bir ay ərzində insanın gecənin alaqaranlığından günəş batana qədər ən təbii haqqı və zəruri ehtiyacı olan qidadan uzaq durması böyük iradə və səbrin, inamın nümunəsi, Allahın əmrlərinə təslim olmanın göstəricisidir.

Allahın evi adlandırılan Məkkə müqəddəs Ramazan ayında fəth edildiyi üçün Həcc ziyarətində olmuş insanlarla görüşüb orucluğun bu mübarək günlərində söhbətimi onlarla davam etdirmək istədim. İslami dəyərlərin, İslam mədəniyyətinin beşiyi sayılan Naxçıvanda belə ailələr onlarladır. Həmin ailələrdən birinə – Abbaslılar ailəsinə yollandım. Həm ziyalı, həm də dini dəyərlərə bağlı olan bu ailənin üzvləri – Zakir həkim, yoldaşı Sədaqət xanım və övladları Əbülfəzlə Kənan tibbin ayrı-ayrı sahələri üzrə insanların sağlamlığının qoruyucuları – həkimdirlər. Mən müsahiblərimlə görüşə gedəndə bu ailədən iki nəfərin Həcc ziyarətində olduğu barədə məlumatım var idi. Lakin söhbət əsnasında Zakir həkimin onlarla birlikdə yaşayan və dünyalarını dəyişən ata-anasının, Sədaqət xanımın isə anasının bu möhtəşəm ziyarətdə olduqlarını öyrəndim. Həm də onların hər birinin ziyarətlərinin bu ailənin maddi imkanları hesabına ödənildiyini biləndə bir övlad üçün bundan daha gözəl, böyük savab nə olar? – deyə düşündüm. Zakir həkim: – Ailəmiz dini dəyərləri yüksək qiymətləndirən, ibadətli bir ailədir. Hər bir müsəlman kimi, mənlə yoldaşımın da ailə qurandan arzularımızın ən böyüyü birlikdə Həcc ziyarətinə getmək olmuşdu. Lakin bizimlə yaşayan ağsaqqal-ağbirçəklərimizin, ata-anamın, qayınanamın qarşısında bizim ziyarətə getməyimiz nə xalqımıza məxsus ailə dəyərlərinə, nə də İslam qayda-qanunlarına uyğun olmazdı. Odur ki, Sədaqət xanımla məsləhətləşdik ki, birinci böyüklərimiz, sonra biz! Onları ziyarətə göndərdik, 7 il sonra – 2013-cü ildə isə bu, bizə qismət oldu. Həcc ziyarəti müxtəlif şərtlərlə bütün müsəlmanlar üçün vacibdir. Bizim ailədə də bu vacib əməli beş nəfərin yerinə yetirə bilməsi və Həcc ziyarətinin bizə qismət etdiyi üçün Allaha şükürlər olsun.

Ramazan ayı Allaha ibadətlə yanaşı, həm də bu ayda ac qalmaq tibbi cəhətdən insanlar üçün çox əhəmiyyətlidir. Bu məsələyə münasibət bildirmək üçün müsahiblərimin həkim olması çox yerinə düşdü. Sədaqət xanım: – Orucda böyük ilahi hikmət var. Eyni zamanda bir ay oruc tutmaq insanın sağlamlığında da mühüm rol oynayır. Axı bu əməli vacib edən Allah-Taala bəndəsinə faydalı olmayan heç nəyi əmr etməz. Peyğəmbərimiz Həzrəti Məhəmməd buyurmuşdur: *"Oruc tutun ki, sağlam olasınız!"* Qədim zamanlardan başlamış günümüzədək oruc ibadətlə yanaşı, insan sağlamlığını möhkəmlətmək, müxtəlif xəstəlikləri müalicə etmək üçün təbii vasitə kimi də nəzərdə tutulub. Antik dövrdə Sokrat, Platon, Aristotel kimi yunan müdrikləri müəyyən müddət ac qalmağı, başqa sözlə, oruc tutmağı tövsiyə etmişlər. Müasir alimlər də yemək-içməkdən imtina etməklə bir çox xəstəliklərin müalicəsində uğurlu nəticələr əldə etmişlər.

Zakir həkim söhbəti davam etdirərək deyir: – Bir çox dərdin dərmanı elə insanın öz əlindədir. Bu gün həkimlər təsdiqləyirlər ki, oruc tutmaq hamı, hətta sağlam adamlar üçün həyati zərurətdir. İnsan qida qəbul edərkən, nəfəs alarkən həm də külli miqdarda toksin maddə qəbul edir. Bu zərərli maddələri bədəndən oruc tutmaqla kənarlaşdırmaq mümkündür. Oruc tutarkən mədə, bağırsaqlar, qaraciyər və həzm prosesində iştirak edən digər orqanlar istirahət edir. Bu isə həzm sisteminin yaxşılaşmasına gətirib çıxarır. Qan təmizlənir, damarlar xolesterindən azad olur, beyin daha yaxşı işləyir. Orqanizmdə zəif, xəstə, yaxud zədələnmiş hüceyrələr yeniləri ilə əvəzlənir. Bir çox insanın əziyyət çəkdiyi artıq çəkidən və onun doğurduğu xəstəliklərdən qurtulmaq üçün oruc təsirli vasitədir. Eyni zamanda oruc pis vərdişləri (siqaretə, spirtli içkilərə və sair) bağlılığı tərgitməyə də kömək edir.

Oruc tutmaq, həmçinin bel, onurğa, boyun ağrılarının sağalmasına kömək edir. Bu yaxınlarda bir mənbədən oxumuşdum ki, Norveçdə aparılan elmi-tədqiqat nəticəsində qida qəbulundan imtinanın oynaqların iltihabının müalicəsində effektiv vasitə olduğu təsdiqlənmişdir. Bir şərtlə ki, xəstə dörd həftə ac qalsın. Bu isə, təxminən Ramazan orucunun müddətinə bərabərdir.

Oruc insan psixikasına, əsəb sisteminə də müsbət təsir göstərir, bir sıra psixiatrik xəstəliklərin müalicəsində əvəzsiz vasitədir. Maraqlı bir faktı da deyim ki, rus alimi, professor Yuri Nikolayev məhz oruc vasitəsilə 7 min nəfərdən çox psixi xəstəni müalicə etmişdir. Ümumiyyətlə, insan orqanizminin elə bir üzvü yoxdur ki, oruc ona müsbət təsir göstərməsin.

İki övlad böyüdüb, onlara gözəl tərbiyə və təhsil verən, ailə dəyərlərini hər zaman uca tutan bu ailənin başçısı Zakir həkim muxtar respublikamızda illərdir, cərrah-uroloq, anestezioloq-reanimatoloq kimi tanınan həkim, səmimiyyəti ilə isə sayılıb-seçilən, gözəl insandır. Gündəlik həyatında onsuz da xəstələrinə məsuliyyət və qayğı ilə yanaşan, əməliyyatlara girərkən "Allahım, sən bu xəstənin şəfasını ver, məni də onun və qohumlarının yanında başıaşağı etmə", – deyən Zakir həkim orucluğun dərmanlıq amillərindən də söhbət açır: – Oruc ancaq yeyib-içməkdən uzaqlaşmaq deyil, həm də günah sayılan bütün davranışlardan özünü qorumaqdır. Oruc tutan adam halal yeməkdən iftara qədər uzaq qaldığı kimi, dilini yalandan, əllərini haram işlərdən, mədəni haram loxmadan, gözləri harama baxmaqdan, qulaqları yalan və qeybət eşitməkdən, ayaqları pis işlərin arxasınca getməkdən uzaq tutmalıdır. Oruc tutanlar düşmənçiliyə, umu-küsüyə son qoymalıdırlar. Hamı bir-birinə münasibətdə mərhəmətli olmağı, bir-birini bağışlamağı bacarmalıdır. Allah-Taala oruc tutmağı buyurmaqla bütün insanların dinc, mehriban şəraitdə yaşamasının zəruriliyini diktə etmişdir. Həm də ki tək Ramazan ayında deyil, başqa günlərdə də bunlara diqqət yetirilməlidir.

Müsahiblərim muxtar respublikamızda son illər dini abidələrin, ziyarətgahların bərpasını, yeni məscidlərin tikilməsini, dindarlar üçün lazımi şəraitin yaradılmasını, yas mərasimlərinin dini qayda-qanunlara uyğunlaşdırılaraq nümunəvi həddə çatdırılmasını, Ramazan ayında artıq ənənə şəklini almış iftar süfrələrinin açılmasını söhbətimiz zamanı dəfələrlə vurğuladılar. Onlar bütün bunları ta qədimdən İslam dünyasının qədim mədəniyyət mərkəzlərindən biri olan Naxçıvanın bu statusunu müasir dövrdə də qoruyub saxlamağın bəhrələri kimi dəyərləndirirlər.

Yazını hazırlamaq üçün apardığım araşdırmalardan və müsahiblərimlə çox maraqlı söhbətdən sonra bu qənaətə gəlirəm ki, müsəlmanlar üçün Allah-Taalanın buyurduqlarını başdan-başa özünə sığdıra bilən Ramazan ayı, həqiqətən də, "Qurani-Kərim"in baharı, həm də heç zaman solmayan baharıdır.

✍ **Mətanət MƏMMƏDOVA**

***AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin "Naxçıvan şəhərinin epiqrafik abidələri" adlı monoqrafiyasının təqdimatı keçirilib.***

## *"Naxçıvan şəhərinin epiqrafik abidələri"* monoqrafiyasının təqdimatı keçirilib




Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq Naxçıvan şəhərinin epiqrafik abidələri barədə məlumat verib. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası ərazisində xeyli sayda epiqrafik abidələr olsa da, müstəqillik illərinə qədər onlar sistemli şəkildə tədqiqata cəlb edilməyib.

Akademik bu gün tarixi-mədəniyyət abidələri, o cümlədən memarlıq nümunələrinin dövlət qayğısı ilə əhatə olunduğunu, qorunub saxlanılması, bərpası və təbliği istiqamətində bir sıra işlərin görüldüyünü xatırladıb. O, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisində tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli Sərəncamına əsasən 2006-cı ildən etibarən regiondakı abidələrin sistemli şəkildə öyrənildiyini söyləyib.

Daha sonra institutun şöbə müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent İlhami Əliyevin "Naxçıvan şəhərinin epiqrafik abidələri kitabı haqqında bir neçə söz" mövzusunda məruzəsi dinlənilib. Bildirilib ki, əsərdə Naxçıvan şəhərində zəmanəmizədək gəlib çatan memarlıq abidələrinin üzərində qalan kitabələrlə yanaşı, vaxtilə tədqiqatçılar tərəfindən öyrənilən, lakin müəyyən səbəblərdən bu günümüzədək gəlib çatmayan bir neçə kitabə, həmçinin Yusif Küseyir oğlu, Möminə xatın türbələri, Qoşa minarəli baştağ, Naxçıvan şəhər İmamzadəsinin və Naxçıvan şəhər Came (Cəfəriyyə) məscidinin kitabələri, eləcə də Naxçıvan Dövlət Tarix Muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi və Açıq Səma Altında Muzeydə nümayiş etdirilən epiqrafik abidələrlə bağlı məlumatlar yer alıb. O, kitabələrin Azərbaycan dilinə mətn tərcüməsinin və onların şəkillərinin nəşrə daxil edildiyini deyib.

Təqdimat mərasimində institutun şöbə müdirləri, tarix üzrə fəlsəfə doktorları Asəf Orucov və Toğrul Xəlilov yeni nəşrin elmi dəyərindən söz açıblar.

Sonda müəllif çıxış edərək minnətdarlığını bildirib.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## Voleybol üzrə muxtar respublika turniri başa çatıb



Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı ildönümünə həsr edilmiş "Heydər Əliyev kuboku" uğrunda voleybol üzrə muxtar respublika turnirinə yekun vurulub.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Voleybol Federasiyasının birgə təşkil etdiyi turnirdə "Naxçıvan", "Culfa", "Şərur", "Sədərək" komandaları ilə yanaşı, Azərbaycanın gənclərdən ibarət yığma komandası da mübarizə aparıb.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində iki gün davam edən turnirin final görüşündə "Naxçıvan" komandası Azərbaycanın gənclərdən ibarət milli komandasını sınağa çəkib. Keçirilən hər üç seti 25:22, 25:18 və 25:15 hesabları ilə başa vuran yığma komanda turnirin qalibi adını qazanıb.

Sonda hər iki komanda diplom, medal və kubokla mükafatlandırılıb.

Mükafatları Gənclər və İdman naziri Azad Cabbarov və Voleybol Federasiyasının sədri Mənşur Gülməmmədov təqdim ediblər.

## Həndbol üzrə yoldaşlıq görüşü

Naxçıvan Qarnizonu tam orta məktəbinin idman zalında "Naxçıvan Muxtar Respublikası – 95" devizi altında qızlar arasında həndbol üzrə yoldaşlıq görüşü keçirilib.



Naxçıvan şəhər və Şahbuz Rayon Gənclər və İdman idarələrinin təşkilatçılığı ilə keçirilən yoldaşlıq görüşündə "Naxçıvan" və "Şahbuz" komandaları qarşılaşıblar. Gərgin keçən görüş 15:7 hesabı ilə "Naxçıvan" komandasının qələbəsi ilə başa çatıb.

Sonda hər iki komandaya şəhər Gənclər və İdman İdarəsinin diplom və fəxri fərmanları təqdim edilib.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

Naxçıvan şəhəri, Ə.Əliyev küçəsi, bina 41, mənzil 7-də qeydiyyatda olan Quliyev Təvəkkül Abbas oğlunun adına olan 8930 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

### *Bildiriş*

"Naxçıvan Tikinti Materialları" ASC-nin 8 iyul 2019-cu il tarixdə keçiriləcək ümumi yığıncağının gündəliyində "Müəssisənin yeni Nizamnaməsinin qəbul edilməsi" məsələsi də olacaqdır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:** MEHRİBAN SULTANOVA

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Əli Cabbarov**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1495. Sifariş № 370**